

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 72 (21.224)

15 aprel 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Serbiya Respublikasının Baş naziri Aleksandr Vuçiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Serbiya Respublikasının Baş naziri Aleksandr Vuçiçin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini ifadə etdi.

Serbiyanın Baş naziri Aleksandr Vuçiç ölkəsinin Azərbaycan ilə əlaqələri siyasi sahədəki kimi, iqtisadi sahədə də genişləndirməkdə maraqlı olduğunu dedi.

Söhbət zamanı əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, infrastruktur, sərmayə qoyuluşu, yükdaşımaları, mədəni, humanitar və digər sahələrdə perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunularaq münaqişələrin beynəlxalq hüquq normalarına uyğun şəkildə və ərazi bütövlüyü çərçivəsində həll olunmasında ölkələrimizin mövqeyinin üst-üstə düşdüyü vurğulandı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir tədris avadanlıqları, o cümlədən kompüterlərlə, fənn laboratoriyaları və elektron lövhələrlə təmin olunması tədrisin səviyyəsini yüksəltməklə yanaşı, şagirdlərin texniki fənlərə marağını da artırmışdır.

Texniki fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılması üçün yeni tipli təhsil müəssisəsinin yaradılmasına ehtiyac vardır.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq texniki fənlərin səmərəli tədrisini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 aprel 2015-ci il*

## Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətindən bəhs edilən açıq dərs keçilib



Görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 9 aprel tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilib. Tədbirlər planına əsasən, Cəmşid Naxçıvanskinin ev-muzeyində açıq dərslər keçiləcək. Dünən Cəmşid Naxçıvanskinin ev-muzeyində Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin şagirdlərinin iştirakı ilə açıq dərs keçilib.

Açıq dərs başlamazdan əvvəl Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Məmməd Qəribov çıxış edərək bildirib ki, belə açıq dərslər həftədə iki dəfə olmaqla nazirliyin tabeliyində olan təhsil müəssisələrinin şagird və tələbələrinin iştirakı ilə keçiləcək, bu dərslərdə görkəmli sərkərdənin həyat və fəaliyyətinə nəzər yetiriləcək.

Açıq dərsdə Heydər Əliyev adına tam orta məktəbin tarix müəllimi Feyruz Novruzov bildirib ki, Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçib. O, Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr verib. Yüksəkixtisaslı hərbçi kadr hazırlığı sahəsində böyük rol oynayan Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalaraq totalitarizmin qurbanına çevrilmiş qəhrəman vətən övladlarındandır.

Sonra şagirdlər ev-muzeyindəki eksponatlarla tanış olublar. Məlumat verilib ki, bu muzey 1981-ci ildə qəhrəman hərbçiyə dərin ehtiramın ifadəsi olaraq ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Muzeyin yaradılmasında əsas məqsəd Cəmşid Naxçıvanskinin keçdiyi döyüş yolunu, onun Azərbaycan hərb sənətindəki rolunu öyrənmək, bu ölməz sərkərdənin hərbi fəaliyyətini gələcək nəsillərə təbliğ etməkdən ibarət olub.

## Əmək yarmarkasında 46 nəfərə göndəriş verilib

Dünən Ordubad rayonunda əmək yarmarkası keçirilib. Tədbirdə rayon Məşğulluq Mərkəzinin direktoru Telman Həsənov çıxış edərək bildirib ki, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və məşğulluğunun yaxşılaşdırılmasında çevik məşğulluq tədbirlərindən biri olan əmək yarmarkaları mühüm rol oynayır. Son illər təşkil olunan əmək yarmarkaları vasitəsilə yüzlərlə ordubadlının məşğulluq problemi həll edilib. Cari ildə də bu ənənə davam etdirilir.

İşaxtaran vətəndaş Taliyə Bağırova əmək yarmarkasının keçirilməsinin işaxtaranlar üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli çıxışında qeyd edib ki, rayonda məşğulluq problemlərinin həlli daim diqqət mərkəzində saxlanılır. Kənd mərkəzlərinin, məktəb binalarının tikintisi və ya yenidən qurulması, içməli su və kanalizasiya xətlərinin çəkilişi və digər quruculuq tədbirləri nəticəsində yaranmış iş yerləri, eləcə də idarə və müəssisələrdə müxtəlif ixtisas və peşələr üzrə yaranmış boş iş yerləri qeyri-məşğul əhalinin işlə təmin olunması üçün geniş imkanlar açır.

Sonra əmək yarmarkasının iştirakçıları boş iş yerləri ilə tanış olublar. 25 təşkilatdan 269 boş iş yerinin çıxarıldığı yarmarkada 46 nəfərə işə göndəriş verilib.

## Tarixin gedişini dəyişən dahi şəxsiyyət

*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsi tələbələrinin iştirakı ilə "Tarixin gedişini dəyişən dahi şəxsiyyət" mövzusunda açıq dərs keçilib.*



Açıq dərsdə Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, dosent Qərib Allahverdiyev dahi rəhbər, dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətinin xilaskarı və qurucusu ümummilli lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri və rolundan bəhs edib. Bildirilib ki, ümummilli liderin yüksək idarəçilik məharəti və böyük siyasi təcrübəsi sayəsində müstəqil, çiçəklənən və firavan Azərbaycanın təməli qoyulub. Ulu öndər Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi Azərbaycan xalqı və dövlətinin gələcəyi üçün tarixi önəm kəsb edir.

Mühazirəçi müstəqilliyimizin təminatçısı dahi rəhbər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin dönməzliyi və əbədiliyinin təmin olunması uğrunda yorulmaz fəaliyyəti, ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət qurulması istiqamətində həyata keçirdiyi islahatlar barədə də danışıb. Vurğulanıb ki, böyük şəxsiyyətlər tarixin gedişinə güclü təsir göstərə bilirlər. Bu, tarixin sınağından çıxmış bir həqiqət kimi real həyatda dəfələrlə öz təsdiqini tapıb. Məhz görkəmli dövlət xadimi Heydər Əliyev dövlətçilik fəaliyyəti ilə Azərbaycan xalqının inkişaf tarixinə öz əbədi möhürünü vurub.

Sonra tələbələr muzeydəki eksponatlarla tanış olublar.

**Mina QASIMOVA**

## Ölkəmizdə ilk dəfə Naxçıvanda radio proqramlarının rəqəmsal formatda yayımına başlanılıb

***Naxçıvan Muxtar Respublikasında dövlət qayğısı sayəsində yeni texnologiyaların tətbiqi istiqamətində mühüm addımlar atılır.***

Ötən ilin sonlarından etibarən muxtar respublika ərazisində rəqəmli televiziya yayımına başlanması rəqəmli radio yayımına keçid üçün şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyindən verilən məlumata görə, hazırda 49 verici vasitəsilə muxtar respublikanın bütün yaşayış məntəqələrində 12 televiziya kanalının efirdə yüksəkkeyfiyyətli rəqəmsal formatda yayımı təmin edilir.

Rəqəmli radio yayımının təşkil edilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən, Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən bu ilin yanvar ayından müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb və mart ayının sonunda test-sınaq işləri başa çatdırılıb. Hazırda "Naxçıvanın səsi" radiosu, Naxçıvan dövlət radiosu, Azərbaycan milli radiosu, "Azad Azərbaycan", "Araz", "Lider", "Space", "ANS ÇM", "Radio Anten" və "İctimai" radio dinləyicilərə rəqəmli formatda təqdim olunur.

Bununla da, sosial paketə 10 ədəd radio kanalının da daxil edilməsi ilə Azərbaycanda yerüstü yayım imkanları daxilində ilk dəfə Naxçıvan Muxtar Respublikasında radio proqramlarının rəqəmsal formatda yayımı təşkil edilib.

Artıq muxtar respublikanın istənilən yaşayış məntəqəsində sosial paketdə televiziya kanalları ilə yanaşı, radio kanallarını da hər hansı maneə olmadan dinləmək mümkündür.

## Gənclərin hərbi xidmətə yola salınması davam edir

*Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Culfa Rayon Şöbəsində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib.*

"Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 mart 2015-ci il tarixli Sərəncamına əsasən, hərbi xidmətə çağırılan gənclərin yola salınması münasibətilə təşkil edilmiş mərasimi giriş sözü ilə şöbənin rəisi, mayor Vüsal Məmmədov açıb.

Bildirilib ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatı yaxşılaşdırılıb, şəxsi heyətin mənəvi- psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Silahlı Qüvvələrin Naxçıvanda yerləşən hissələrində də bu gün yüksək şərait yaradıldığını diqqətə çatdıran mayor Vüsal Məmmədov onu da bildirib ki, görülən bu işlər çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verib.

Culfa rayon prokurorunun köməkçisi Xalid Ağayev, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının Qadınlar Şurasının sədri Təranə Bayramova çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Elxan Əsgərov ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yola salınmasının onun üçün əlamətdar bir hadisə olduğunu bildirib.

Çağırışçılar adından çıxış edən Orucəli Mansurov Vətənə şərəflə xidmət edəcəklərinə, komandir və rəislərin əmrlərini vaxtında və dəqiq yerinə yetirəcəklərinə, əsgər adını həmişə uca tutacaqlarına söz verib.

Qeyd edək ki, analoji tədbir Ordubad rayonunda da keçirilib.

**Xəbərlər şöbəsi**

# Nəciblik zirvəsi



***Hər bir insanın ömür payı Ulu Tanrı tərəfindən verilir. Tale və qisməti isə insan öz əməlləri ilə qazanır. Bu mənada elə insanlar var ki, dünyasını dəyişdikdən sonra belə, qəlblərdə həmişəlik yaşayır. Belə şəxsiyyətlər dünyanın ən xoşbəxt, bəxtəvər insanları kimi həyatlarını cəmiyyətin ictimai inkişafı və tərəqqisinə həsr edir, gələcək nəsillərə örnək ömür yolları ilə daim xatırlanırlar. Azərbaycan xalqının yaddaşında hər zaman yaşayan görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva da belə şəxsiyyətlərdən idi.***

Azərbaycan səhiyyəsinin və tibb təhsili sisteminin mahir təşkilatçısı, qurucusu və yaradıcılarından olan görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım həkimlik sənətinə kiçik yaşlarından həvəs göstərmişdir. Onun uşaqlıq çağlarının ilk illəri Kəngərli rayonunun Şahtaxtı kəndində keçmiş, sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Həyatını Azərbaycan mədəniyyətinin, musiqisinin, elminin inkişafına həsr edən böyük söz və sənət adamları ilə ailəvi və mənəvi yaxınlıq telləri ilə sıx bağlı olan bir mühitdə boya-başa çatan Zərifə xanım zaman keçdikcə özündə Azərbaycan ziyalısının ən gözəl nümunəsini təcəssüm etdirmişdir.

İnsan, vətəndaş və alim anlayışları Zərifə xanım Əliyeva şəxsiyyətində birləşərək bölünməz bir vəhdət təşkil etmişdir. Zərifə xanımın elm aləminə qədəm qoyması, öz zəngin yaradıcılığı ilə Azərbaycan və dünya elminə dəyərli töhfələr verməsi təsadüfi deyildi. Ona işıqlı yol göstərən atası Əziz Əliyevin Zərifə xanımın həkim-oftalmoloq peşəsini seçməsində böyük təsiri olmuşdur. 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olan və 1947-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirən Zərifə Əliyeva Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. Elmi tədqiqatlara olan sonsuz marağı onu Azərbaycan Oftalmologiya Elmi-Tədqiqat İnstitutuna gətirib çıxarmışdır. 1950-1953-cü illərdə Zərifə xanım Əliyeva aspiranturada təhsil almış və elmi tədqiqatla məşğul olmuşdur.

Taleyini tibb elminə həsr edən görkəmli alim oftalmologiyanın aktual problemlərinə dair çoxsaylı tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının tapılması istiqamətində səmərəli elmi araşdırmalar aparmışdır. Alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən birini gözün histomikroskopik və histokimyəvi tədqiqi təşkil etmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun “Yaşla əlaqədar gözün və görmə siniri yollarının dəyişməsi”, “Gözün hidrodinamik sisteminin anatomik-fizioloji xarakteristikası” adlı monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır. Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri görkəmli həkimin doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə Əliyeva “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusundakı dissertasiya işini 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən biri olan Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Dissertasiya çox yüksək qiymətləndirilmiş və 1977-ci ildə Zərifə Əliyevaya “tibb elmləri doktoru” elmi adı verilmişdir. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd edək ki, Zərifə xanım həmin mükafata layiq görülən ilk qadın idi. 1983-cü ildə gərgin elmi-təşkilati fəaliyyətinə və oftalmologiyanın inkişafında xüsusi xidmətlərinə görə isə O, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Zərifə xanım Əliyeva bir çox sanballı tədqiqatların, o cümlədən 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 160-a yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. Onun zəngin pedaqoji və elmi təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında öz əksini tapmışdır. Bu kitab həm oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün əsas elmi mənbədir. Alimin elmi fəaliyyətini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev demişdir: ***“Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın”.***

Zərifə xanım nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə də ciddi məşğul olmuş, həmin sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan “İridodiaqnostikanın əsasları” Bakıda, “İridodiaqnostika” isə 1988-ci ildə Moskvada nəşr olunmuşdur. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitablar ilk dəfə Zərifə xanım Əliyeva tərəfindən yazılmışdır.

Görkəmli alim həmçinin dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin – “peşə oftalmologiyası”nın əsasını qoymuşdur. Bu mənada oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiya məkanında məşhurlaşdırmışdır. Zərifə xanım elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və bu xəstəliklərin profilaktikası üsullarını işləyib hazırlamışdır. Akademik uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparmış, “Şin istehsalatında gözün peşə patologiyası”, “Xronik yod intoksikasiyası zamanı oftalmologiya” və “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” adlı qiymətli monoqrafiyalar yazmışdır. Onun bu sahədəki ciddi axtarışları dünya tibb elmi ədəbiyyatının nadir tədqiqatları sırasındadır.

Elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə də xüsusi yer verən Zərifə xanım Əliyeva bu mövzuya dair baxışlarını “Həkimin yüksək vəzifəsi” və “Oftalmologiyanın aktual problemləri” monoqrafiyalarında geniş şərh etmişdir. Zərifə xanımın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” əsərində daha ətraflı şəkildə əks olunmuşdur. Alim haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: ***“Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir”.***

Zərifə xanım Əliyeva ötən əsrin 60-70-ci illərində Azərbaycan Elmlər Akademiyası Oftalmologiya İnstitutunun ordinatoru kimi Naxçıvanda keçirilən səyyar seminarda iştirak etmək üçün Bakıdan göndərilmiş nümayəndə heyətinin tərkibində muxtar respublikaya gəlmişdir. Onun elmi seminardakı yüksək nəzəri səviyyəyə malik çıxışı və irəli sürdüyü təkliflər traxoma xəstəliklərinə qarşı mübarizədə yeni istiqamətlər müəyyənləşdirmişdir. Naxçıvan oftalmoloqları Zərifə xanım Əliyevanın əsaslandırılmış təkliflərindən istifadə edərək onun ideyası ilə yaranmış iridodiaqnostika vasitəsilə göz xəstəliklərinin düzgün və operativ müalicə edilməsinə nail ola bilmişlər.

Zərifə xanım təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksəkixtisaslı gənc kadrların yetişdirilməsinə və oftalmoloq həkimlərin ixtisaslarının artırılması işinə də xüsusi diqqət yetirmişdir. Zərifə Əliyeva həm də görkəmli ictimai xadim idi. O, keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq “Bilik” Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, “Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi Ana adıdır. O, yaxşı ana, vəfalı ömür-gün yoldaşı, ailəsinə vurğun insan idi. Zərifə xanım Əliyeva müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı sirdaşı olmuşdur. Ulu öndərimiz bu barədə demişdir: ***“Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi”.***

Həyatını elm yolunda, insanların sağlamlığına xidmət etməyə sərf edən Zərifə xanım Əliyeva işlərinin çoxluğuna baxmayaraq, Ana adının ucalığını özündə yaşatmış, övladlarının tərbiyəsini həyat amalına çevirmiş, valideynlik borcunu şərəflə və sədaqətlə yerinə yetirmişdir. Görkəmli akademik həm də ümummilli liderin siyasi xəttinin layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin anası kimi şərəfli bir ada sahibdir. Bu gün xalqa xidmət amalını bir ailə ənənəsi kimi yaşadan Prezident İlham Əliyev demişdir: ***“Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur”.***

“Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz, onu “Əvəzolunmaz insan haqqında povest” adlandırardım”, – professor V.Şmelyevanın bu fikirləri Zərifə Əliyeva şəxsiyyətini büsbütün tərənnüm edir. Dünya oftalmologiya elminin bir çox tanınmış simaları da Zərifə xanım Əliyeva haqqında maraqlı fikirlər söyləyiblər. Görkəmli oftalmoloq, akademik A.Nesterov demişdir: “Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada O, bir nömrəli idi”. Zərif və nəzakətli, alicənab və ziyalı xanım olan görkəmli oftalmoloqun ömür yolu, elmi fəaliyyəti çox zəngindir. Məhz bu cür şəxsiyyətlərin xatirələri tarixboyu əziz tutulur, onların adları əbədiləşir. Zərifə xanım Əliyeva da Azərbaycanın tanınmış simaları sırasında ən layiqli yerini tutmuşdur. Ölkəmizdə onlarla məktəb, xəstəxana, küçə akademik Zərifə Əliyevanın adını daşıyır. Kəngərli rayonunun Şahtaxtı kəndində görkəmli oftalmoloqun adını daşıyan məktəb son illərin möhtəşəm quruculuq ünvanlarındandır. Naxçıvan Şəhər Poliklinikası da 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır.

*Zərifə xanım 1985-ci il aprelin 15-də əbədiyyətə qovuşdu. O, az yaşasa da, tibb elminə böyük töhfələr verdi, yüzlərlə insanın həyatına nur saçdı, qaranlıq dünyalara işıqlı yol göstərdi. İnsanlara nur bəxş edən bu nurlu insanın xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayır və onun misilsiz xidmətləri bu gün də yüksək tutulur.*

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

# Akademik Zərifə xanım Əliyevanın xatirəsi yad edilib

***Naxçıvan Tibb Kollecində akademik Zərifə xanım Əliyevanın anım günü ilə əlaqədar tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan kollecin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İlhamə Mustafayeva görkəmli alimin mənalı ömür yolundan və elmi fəaliyyətindən danışıb. Qeyd olunub ki, tibb elmində böyük xidmətləri olan görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva Azərbaycanın XX əsrdə ən tanınmış alimlərindən və şəxsiyyətlərindən biridir. Alimin Azərbaycanda oftalmologiya elminin inkişafında və dünyada tanıdılmasında müstəsna xidmətləri vardır. Bildirilib ki, akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Kollecin direktoru vurğulayıb ki, Zərifə xanımın elmi fəaliyyəti çox zəngin və əhatəli olub. İstedadlı alim kimi O, oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və dəyərli elmi əsərlər yazıb. Zərifə xanım Əliyevanın qələmə aldığı “Terapevtik oftalmologiya”, “Oftalmologiyanın aktual məsələləri”, “İridodiaqnostikanın əsasları” kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdəndir.

Xeyirxahlıq mücəssəməsi, bütün ömrü boyu insanlara nur və xoşbəxtlik bəxş etmiş, Azərbaycan oftalmologiya elmini yüksəklərə qaldıran görkəmli alimin əvəzsiz xidmətlərini xüsusi qeyd edən İlhamə Mustafayeva bildirib ki, ömrünün hər günü mənəvi ucalığa bir pillə olmuş Zərifə xanım Əliyeva 1985-ci ildə əbədiyyətə qovuşdu, tarixin daş yaddaşına imzasını elm fədaisi, nur çeşməsi, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı kimi həkk etdi. Böyük insan cismən aramızda olmasa da, qoyub getdiyi nur çeşməsi aydınlığını bir damla belə azaltmayıb. Əksinə, bu işıq onun yenidən Günəşi görmək imkanını qaytardığı insanlarda, onunla bağlı xatirələrdə əbədiləşib.

Tədbirdə kollecin müəllimlərindən Səkinə Şahtaxtinskaya, Arzu Qasımova və Sahibə Quliyeva çıxış edərək görkəmli alimin keçdiyi mənalı həyat yoluna nəzər salıb, onun yüksəkixtisaslı kadrların hazırlanmasında və göz xəstəliklərinin müalicəsində göstərdiyi misilsiz xidmətlərindən danışıblar.

Sonda akademik Zərifə xanım Əliyevanın həyat yolu və elmi fəaliyyətindən bəhs edən slayd nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

# Özəlləşdirmə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsinə xidmət edir

***Özəlləşdirmə siyasəti tarixən təkcə bazar iqtisadiyyatına keçid dövründə sistem dəyişiklikləri yaşayan dövlətlərin deyil, eyni zamanda sənayecə inkişaf edən, təkmil bazar münasibətləri ilə seçilən dövlətlərin də iqtisadi siyasətində mövcud olub. Buna görə də son zamanlar sürətlə qloballaşan dünya iqtisadiyyatında mülkiyyətin və müəssisələrin özəlləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər mühüm əhəmiyyət daşıyır.***

Ümumiyyətlə, özəlləşdirmə proqramlarına müxtəlif aspektlərdən yanaşmalar olsa da, onların hamısının qarşısında bir sıra problemləri həll etmək vəzifəsi durur. Burada, ilk olaraq, maliyyə sisteminin sağlamlaşdırılması məsələsi əsasdır. Çünki praktik olaraq bütün ölkələrdə özəlləşdirmə prosesi yüksək inflyasiya, dövlət büdcəsinin kəsirinin artımı və digər mənfi tendensiyalarla müşayiət olunub. Digər məqsəd isə rəqabətin artırılması, təbii inhisarların tədricən ləğvi, eyni zamanda əhalinin mülkiyyətçilər təbəqəsinə çevrilməsi yolu ilə iqtisadi artımın sosial bazasını formalaşdırmaqdan ibarətdir. Ən əsası, özəlləşdirmə dövlətin iqtisadi rolunun və funksiyalarının dəyişdirilməsi, iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi məqsədi daşıyır.

Azərbaycanda özəlləşdirmə sistemi müstəqilliyin əldə edilməsindən sonra tətbiq edildi və ölkə iqtisadiyyatının inkişafı baxımından böyük əhəmiyyət kəsb etməyə başladı. Ötən illər ərzində dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və müvafiq dövlət proqramları təsdiq olundu.

Özəlləşdirmənin başlıca məqsədi təsərrüfat subyektləri üçün xüsusi mülkiyyət və sərbəst rəqabət prinsipləri əsasında öz-özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin yaradılması, iqtisadiyyatın strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması, investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi, əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılmasından ibarət olub.

Dövlətin iqtisadi siyasətinin əsas məqsədlərinə uyğun olaraq, muxtar respublikamızda da özəlləşdirmə prosesi uğurla həyata keçirilməkdədir. 2000-ci ilin avqust ayında "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun və "Naxçıvan Muxtar Respublikası dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı II dövlət proqramı"nın təsdiq edilməsi ilə özəlləşdirmənin ikinci mərhələsinə start verilib. Bu məqsədlə dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi və özəlləşdirilməsi, cəmiyyətlərin fəaliyyətinin bərpası, yeni istehsal və xidmət sahələrinin qurulması, müəssisə, təşkilat və obyektlərin, nəqliyyat vasitələrinin, torpaq sahələrinin özəlləşdirilməsi, dövlət mülkiyyətində olan obyektlərin icarəyə verilməsi, dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadəsinə nəzarət olunması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilməkdədir.

Naxçıvan Muxtar Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesi başlandığı dövrdən indiyədək 4 minə yaxın kiçik müəssisə və obyekt, 1 milyon kvadratmetrdən artıq torpaq sahəsi özəlləşdirilib, bütün bunlardan 4 milyon manatdan artıq vəsait daxil olub.

Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərə çevrilməsi və özəlləşdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 55 dövlət müəssisəsi səhmdar cəmiyyətə çevrilib, 48 səhmdar cəmiyyət özəlləşdirilib, 39-nun fəaliyyəti bərpa edilib.

Fəaliyyəti bərpa edilmiş səhmdar cəmiyyətlərdə müasir dövrün tələblərinə cavab verən yeni texnoloji avadanlıqlar quraşdırılıb, 2 cəmiyyətdə mehmanxana xidməti, 4 cəmiyyətdə kənd təsərrüfatına aqrotexniki xidmət, 1 cəmiyyətdə məişət xidməti, 2 cəmiyyətdə broyler təsərrüfatı, 3 cəmiyyətdə taxıl emalı və taxıl məhsullarının, 4 cəmiyyətdə tikinti və tikinti materiallarının, 19 cəmiyyətdə sənaye məhsullarının istehsalı sahələri yaradılıb. Bu istehsal və xidmət sahələri üzrə, ümumilikdə, 2 mindən artıq yeni iş yeri açılıb.

2015-ci ilin ötən dövründə də bu istiqamətdə işlər davam etdirilib. Belə ki, dövlət əmlakından səmərəli istifadə edilməsi məqsədilə dövlət mülkiyyətində olan obyektlərdə monitorinqlər aparılıb və həmin obyektlərin icarəyə verilməsi təmin edilib. İcarədə olan 190 qeyri-yaşayış və torpaq sahələri üzrə dövlət büdcəsinə bu ilin 3 ayında 18 min manatdan çox icarə haqqı ödənilib.

Dövlət əmlakının qorunub saxlanılması və ondan səmərəli istifadə olunmasına nəzarəti təmin etmək məqsədilə nizamnamə kapitalında dövlət payı olan 4 məhdud məsuliyyətli cəmiyyətdə, 6 səhmdar cəmiyyətdə inventarizasiya aparılıb.

Daşınmaz dövlət əmlakının qorunub saxlanılmasının səmərəliliyinin artırılması, müvafiq informasiya bazasının formalaşdırılması məqsədilə 2015-ci ilin I rübündə ümumi sahəsi 25 min 249,9 kvadratmetr olan 17 müəssisə və obyekt üçün texniki pasport və 1 smeta hazırlanıb. Ümumilikdə, muxtar respublika üzrə indiyə kimi 1975 obyekt texniki pasportla təmin edilib.

Bir sözlə, iqtisadiyyatın bütün sahələrini əhatə edən özəlləşdirmə prosesi muxtar respublikamızda bazar iqtisadiyyatı meyarlarının sürətlə formalaşmasına, qədim diyarımızın xarici iqtisadi əlaqələrinin yüksəlməsinə əsaslı zəmin yaradıb. Muxtar respublikamızda iqtisadi islahatların tərkib hissəsi kimi dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesinin uğurla həyata keçirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin bərqərar olunmasına və insanların həyat tərzinə böyük təsir göstərib.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

*Dövlət proqramı necə icra olunur?*

# Dövlət proqramının uğurlu icrası öz bəhrəsini verir

## *Kəngərlidə meyvə bağlarının sahəsi 636 hektara çatdırılıb*

***Muxtar respublikamızda əhalinin müxtəlif kənd təsərrüfatı məhsullarına olan tələbatının daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər öz bəhrələrini verməkdədir. Bir neçə ildir ki, ticarət obyektlərində belə məhsulların xüsusi çəkisinin xeyli artması görülən işlərin nəticəsidir. Bununla bağlı qəbul edilmiş dövlət proqramlarının bir çoxunun icrası başa çatdırılmış, bəzi proqramlar bu gün də uğurla icra edilməkdədir.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbulundan 3 il ötür. İcrası bu il başa çatdırılacaq proqrama əsasən, muxtar respublikanın bütün bölgələrində həyata keçirilən tədbirlər belə deməyə əsas verir ki, həmin proqram regionda meyvə-tərəvəz məhsullarına olan tələbatın daha dolğun ödənilməsini təmin edib. Proqrama əsasən, bölgələrdə yeni meyvə bağlarının salınması, unudulmaqda olan sortların bərpa edilməsi bəhs olunan dövrdə geniş vüsət almış, muxtar respublikada bir neçə soyuducu anbar qurularaq istifadəyə verilmiş, meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalında artıma nail olunması üçün emal sənayesinin inkişafı diqqət mərkəzində saxlanılmışdır.

İqtisadi səmərəlilik baxımından mühüm əhəmiyyətə malik olan meyvə-tərəvəzçiliyin inkişafı üçün muxtar respublikamızda əlverişli şərait, ekoloji mühit mövcuddur. Kəngərli rayonunda da həmin imkanlardan səmərəli istifadə olunması, məhsuldar və yerli meyvə sortlarının bərpa edilməsi üstün istiqamət verilən sahələrdən birinə çevrilmişdir. Rayonun torpaq mülkiyyətçiləri dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsində fəallıq göstərir, yeni bağ sahələrinin artırılması üçün səylərini əsirgəmirlər. Bu səbəbdəndir ki, ötən il meyvə bağlarından 4476 ton meyvə, üzüm bağlarından 475 ton üzüm tədarük olunmuşdur. Rayonun Qıvraq, Böyükdüz, Qarabağlar, Yurdçu və digər yaşayış məntəqələrində həyata keçirilən tədbirlər hesabına meyvə bağlarının sahələri ilbəil genişləndirilməkdədir. Bu məqsədlə torpaq mülkiyyətçilərinə kreditlərin verilməsi, onlara digər yardımların göstərilməsi bağsalma kampaniyasını daha da sürətləndirmişdir. Xok kənd sakinləri Xaləddin Zeynalov, Həsən İbrahimov, Çalxanqala kəndindən Bayram Məmmədov, Qarabağlarda yaşayan torpaq mülkiyyətçisi Əsgərağa Məmmədov və başqaları verilən kredit hesabına meyvə bağları salmışlar.

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, proqramın qəbulunadək rayonda 361 hektarı məhsulverən olmaqla, 622 hektar bağ sahəsi var idi. 2015-ci ilin yanvar ayının 1-nə olan məlumata görə, meyvə bağlarının sahəsi 636 hektara çatdırılmışdır. Meyvəçilikdə müasir texnologiyaların tətbiqi, texniki xidmət, xəstəlik və ziyanvericilərə qarşı mübarizə vasitələri, üzvi və mineral gübrələrlə təchizat sahəsində də heç bir ciddi problemlə üzləşilmir. Bu istiqamətdə həyata keçirilən tədbirlər gələcəkdə də davam etdiriləcək.

Rayonun torpaq mülkiyyətçiləri tərəvəzçiliyin inkişafına da böyük önəm verirlər. Ötən il rayonda 3572 ton tərəvəz istehsal olunmuşdur. Bu məhsulların satılması məsələsi diqqətdə saxlanılaraq Naxçıvan şəhərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına çıxarılması təmin edilmişdir. 2014-cü ili yüksək göstəricilərlə başa vurmuş rayonun torpaq mülkiyyətçiləri cari ilin ilk yaz günlərindən sahələrə çıxmış, bu günədək 40 hektara yaxın sahədə tərəvəz məhsulları əkmişlər.

Dövlət qayğısını daim hiss edən Kəngərli rayonunun torpaq adamları aprel ayının 8-də aqrar sahənin inkişafı istiqamətində daha bir məqsədyönlü tədbirin şahidi olmuşlar. Belə ki, rayonda suvarılmayan torpaq sahələrini suvarma suyu ilə təmin etmək üçün Uzunoba Su Anbarından qidalanan təbii axımlı boru xəttinin, nasos stansiyasının və təzyiqli boru xəttinin istifadəyə verilməsi meyvəçiliyin və tərəvəzçiliyin, digər əkinçilik sahələrinin inkişafına yeni imkanlar yaratmışdır.

Məlumat üçün bildirək ki, Böyükdüz, Təzəkənd, Yeni Kərki və Xıncab kəndlərində torpaqlar dəmyə üsulu ilə əkilib-becərildiyindən məhsuldarlıq istənilən səviyyədə olmurdu. Yeni layihənin birinci mərhələsinin reallaşdırılması bu çətinlikləri aradan qaldırmışdır. Yeni nasos stansiyası ikipilləli olmasına baxmayaraq, 3300 hektar torpaq sahəsi yalnız öz axımı, 2500 hektar ərazi isə nasos stansiyası vasitəsilə suvarılacaqdır. Bu isə əkin dövriyyəsinə daxil edilən yeni torpaq sahələrində müxtəlif məhsulların yetişdirilməsinə, bol məhsul istehsalına imkan verəcək.

Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"... Muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Meliorasiya və su təsərrüfatı sistemləri olmadan, torpaqların su təminatını ödəmədən isə kənd təsərrüfatının inkişafını təmin etmək mümkün deyil... Artıq Kəngərli rayonunda suvarma sistemlərinin təkmilləşdirilməsi layihəsinin birinci mərhələsi başa çatmış, Uzunoba Su Anbarı təmir olunmuş, yeni su xətləri çəkilmiş, nasos stansiyası tikilmişdir. Layihənin ikinci mərhələsində isə Kəngərli rayonunun Xok kəndinə qədər olan ərazilərin suvarma suyu ilə təmin olunması nəzərdə tutulub".***

Məqsəd aydındır. Bərəkətli torpaqlardan səmərəli istifadə olunsun, bol məhsul yetişdirilsin ki, muxtar respublikaya başqa yerlərdən gətirilən, baha başa gələn və genefondu dəyişdirilmiş meyvə və tərəvəz, həmçinin digər məhsulların qarşısı alınsın.

**✍ Muxtar MƏMMƏDOV**

***İnsanların təhlükəsizliyi üçün bina və qurğuların konstruktiv dayanıqlılığının təmin olunması daim prioritet vəzifə kimi qarşıya qoyulub.***

# Tikintidə təhlükəsizliyə nəzarət artırılıb

Aparılan tikinti işləri zamanı təhlükəsizliyin təmin olunmasında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi də yaxından iştirak edir. İdarə muxtar respublika ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində tikinti sahəsinə aid fəaliyyətin bütün mərhələlərində təhlükəsizlik tələbləri ilə bağlı dövlət siyasətinin həyata keçirilməsini təmin edir və həmin sahədə dövlət nəzarətini həyata keçirir. Binaların, qurğuların və digər obyektlərin tikintisi, əsaslı təmiri, yenidən qurulması, genişləndirilməsi və texniki cəhətdən dəyişdirilməsi zamanı tikinti norma və qaydalarına əməl olunması tikintidə təhlükəsizliyin təmin edilməsində vacib şərtlərdən biridir. Muxtar respublikamızda digər sahələrlə yanaşı, tikinti sahəsinin də sürətlə inkişaf etdiyi bir dövrdə tikintidə təhlükəsizliyin təmin olunması istiqamətində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib, qanunvericilik bazası təkmilləşdirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 yanvar 2015-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları" Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin, sifarişçi, podratçı təşkilatların, layihəçilərin, habelə yerli icra hakimiyyəti orqanlarının üzərinə böyük vəzifələr və məsuliyyət qoyur. Qaydalar ilə tikinti layihəsində nəzərdə tutulmuş işlərin, o cümlədən tamamlama və abadlıq işlərinin yerinə yetirilməsi nəticəsində tikinti obyektinin inşası və ya təmiri, yenidən qurulması, yaxud bərpası işlərinin bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsinin yeni və daha təkmilləşdirilmiş prosedur və mexanizmi müəyyən edilib. Tikintiyə dövlət nəzarətinin məqsədi tikinti-quraşdırma və söküntü işlərinin qanunvericiliyin tələblərinə uyğun aparılmasını, bu işlərin yerinə yetirilməsi prosesində yol verilmiş pozuntuların vaxtında aşkar edilməsini və aradan qaldırılmasını, tikinti obyektlərinin etibarlılığını (dayanıqlılığını və möhkəmliyini) təmin etməkdir.

Ötən dövr ərzində Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin maddi-texniki bazası daha da gücləndirilib, fəaliyyət sahəsi genişləndirilib, idarənin tərkibində Mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılıb. Laboratoriya bu günə kimi 98 adda Türkiyə, İngiltərə, İsveçrə və Rusiya istehsalı olan ən müasir sınaq avadanlıqları ilə təchiz olunub. Laboratoriyada işə qəbul olunmuş mütəxəssislər Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin müvafiq laboratoriyalarında ixtisasartırma kursları keçiblər.

İdarə tərəfindən muxtar respublika ərazisində tikintisi başa çatdırılmış və davam etməkdə olan bina və qurğuların qeydiyyatı aparılıb, mühəndis-geoloji işlərin aparılması ilə bağlı 81 obyekt ərazisindən quyu və şurf qazma üsulu ilə qrunt nümunələri götürülərək analizi aparılıb və müvafiq hesabatlar hazırlanıb.

Həmçinin obyektlərin layihələndirilməsi mərhələsində muxtar respublika ərazisində 279 obyektin tikintisi ilə bağlı layihələndirilmiş obyektlərin layihə sənədləri ekspertizadan keçirilib və obyektlərin tikintisi üçün işçi layihələrə müvafiq rəylər verilib. Tikintidə istifadə olunan tikinti materiallarının dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması və həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı idarənin Mühəndis-geoloji, sement və beton laboratoriyasında 1376 sayda sınaq və analiz keçirilib, müvafiq protokollar verilib. Tikinti dövrü tikintidə istifadə olunan tikinti material və konstruksiyalarının laboratoriya şəraitində keyfiyyətinin yoxlanılması ilə yanaşı, səyyar üsulla tikinti obyektlərində dəmir-beton konstruksiyalarda betonun naturada möhkəmlik göstəricisi mütəmadi olaraq yoxlanılır.

Bu sahədə qarşıya qoyulan vəzifələrin icrası bundan sonra da yüksək səviyyədə həyata keçiriləcəkdir.

**Vüqar KAZIMOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi***

*İnsanı yer üzünün əşrəfi qılan yüksək mənəvi keyfiyyətlərdən biri də "xeyirxahlıq" adlı anlayışın əməldə təzahürüdür. Bu keyfiyyətə qədər insan kiçik yaşlarından müəyyən mərhələlər, tərbiyə prosesi keçir. Həmin mərhələlərdən biri əməksevərlik, əməyə məhəbbət tərbiyəsinin aşılanması dövrüdür. Bu mərhələni lazımi səviyyədə qət edən şəxs, nəticədə, xeyirxah bir insana çevrilir.*

# Xeyirxah insanların həyat qayəsi – əməksevərlik

Nədir əməyə məhəbbət, əməksevərlik? O, insana hansı duyğuları bəxş edir, onda hansı keyfiyyətlər formalaşdırır? Nəhayət, əməksevərlik bir insanda necə təcəlli edir?

Ən əvvəl qeyd edək ki, insanoğlunun ilk tərbiyə məktəbi olan ailə mühiti, digər tərbiyə növləri kimi, gələcəyimiz olacaq övladlarımıza əməksevərlik tərbiyəsini də təlqin etməyə borcludur. Bu tərbiyəyə, başlıca olaraq, uşaqların etdiklərinə, dediklərinə görə məsuliyyət hissi duyduqları andan başlanmalıdır.

Elə bir insan tapılmaz ki, istəyi, arzusu və diləyi olmasın. Yenicə anadan olmuş körpənin belə, istəyi olur. Bu istəyə zaman ötdükcə arzu, daha sonra isə dilək əlavə olunur. Məhz arzulara, diləklərə çatmaq əməksevərliklə mümkündür; zəhmət çəkməklə arzuya çatmaq insana verilən ən dəyərli nemətdir. Hər hansı bir arzuya yetmək, diləyə çatmaq əzmkarlıq sayəsində həyata keçir ki, bunun təməlində əməksevərlik tərbiyəsi durur. Deməli, övladımız arzu, istək sahibi insan kimi tərbiyə edilməlidir. Çalışmalıyıq ki, uşaq öz istəyinə, arzusuna özünün sərf edə bildiyi əməklə, sahib olduğu səriştə ilə çatsın. Bu, onda əzmkarlıq hissi yaradacaq, onu çətinliklərdən qorxmayan cəsarətli, qətiyyətli insana çevirəcək. Bax hələ yenicə əməksevərlik tərbiyəsinə başladığımız ilk vaxtlarda övladımızda formalaşan necə dəyərli keyfiyyətlərə şahidlik etdik; zamanla bu keyfiyyətlər cilalanacaq, şaxələnəcək, beləliklə, yetişməkdə olan gənc nəslə yeni duyğular aşılayacaq. Məhz bu duyğuların fövqündə vətəndaşlıq duyğusu dayanacaq. Bu, o deməkdir ki, Vətənə xidmət kimi ali bir vəzifənin güc qaynağı olan vətənpərvərlik tərbiyəsinin bir qolunu məhz əməksevərlik təşkil edir.

Zəhmətə qatlaşmaq uşaqların, yeniyetmələrin təhsilində xüsusilə vacib amildir. Şagird öyrədilən biliyi məhz zəhmətlə, əmək sərf etməklə mənimsəyir. Mütaliə etmək, öyrədilənləri təcrübi məşğələlərdə nümayiş etdirməklə özününküləşdirmək, sinifdənxaric oxu materiallarını tədris olunan mövzu ilə müqayisə edib ümumi bilik qazanmaq təhsilin ənənəvi prinsiplərindəndir. Bütün bunlar zəhmətkeş şagirdin nəsibi olacaq təhsil uğurlarıdır. Bu uğurların əldə edilməsi üçün muxtar respublikamızda hər cür şərait yaradılıb; yeni məktəb binaları tikilib, mövcud olanlar yenidən qurulub və həmin məktəblər müasir tədris üsul və metodlarına cavab verən tədris avadanlıqları ilə təmin edilib. Qalır, müəllimin və şagirdin zəhmətə qatlaşıb üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməsi, göstərilən qayğıya əməli işlə cavab verməsi. Əmək sərf etməklə qazanılan uğurlar bu günün şagirdini gələcəyin tələbəsi, sənət və ya peşə sahibi kimi məqsədli fəaliyyətə sövq edəcək. Və əlbəttə ki, bu fəaliyyət zamanı da əməksevərlik yenə öz sözünü deyəcək. Gələcəyin ixtisaslı mütəxəssisi kimi yetişib cəmiyyətə, dövlətə yararlı insan olaraq yaşamaq amalı əməksevər tərbiyəyə malik olmaqdan çox asılıdır. Ona görədir ki, Naxçıvanda əməksevər nəslin formalaşması üçün lazımi tədbirlər həyata keçirilir.

Bu da həqiqətdir ki, zəhmətlə qazanılan, əmək sərf etməklə əldə edilən nailiyyətin, uğurun sevinci qiymətəgəlməzdir. Bu cür qazanılan uğur, nailiyyət həmin kəsin ən təbii haqqıdır. Və bu haqqı o kəsin əlindən heç bir qüvvə ala bilməz. Çünki zəhmətkeş xislətə sahib olan insan yenə əzmkarlıq nümayiş etdirərək, zəhmətə qatlaşaraq o cür qüvvələrə qarşı mübarizə aparacaq. Bu mübarizədə isə onun qalib olacağına şübhə yoxdur.

Zəhmətə qatlaşmaq, əmək sərf etmək təkcə fiziki güclə bağlı deyil. Zehni qabiliyyət və əməli səriştə ilə də nümunəvi zəhmətkeşlik, əməksevərlik nümayiş etdirmək mümkündür. Amma bir həqiqət var ki, əməksevərliyin ilk rüşeymini məhz fiziki güc sərf etmək təşkil edir. Bu mənada əməksevərlik tərbiyəsi, yuxarıda qeyd etdiyimiz kimi, kiçik yaşlardan başlanmalıdır. Çünki kiçikyaşlı uşaqlar, təbii olaraq, fiziki güc tələb edən əməyə meyilli olurlar. Belə ki, valideynlər fiziki güc sərf etməklə evdə hər hansı bir iş görərkən uşaq onun yanından ayrılmaq istəmir, bacardıqca valideyninə kömək etmək arzusunda olur. Bax bu məqamı valideynlər fövtə verməməli, ondan düzgün istifadə etməyi bacarmalıdırlar. Bunu uşaqları həvəsləndirmək və əməyə alışdırmaq üçün onlara yaşına uyğun olan işlər görməyi tapşırmaqla həyata keçirmək mümkündür. Bu cür məşğulluq ən təsirli tərbiyə üsuludur. Unutmayaq ki, belə tərbiyə prosesinin özü də gələcəkdə dönüb keçmiş illərə baxaraq övladın tərbiyəsi üçün nə qədər əmək sərf etdiyini valideynə xatırladacaq ən dəyərli xatirədir. Məhz bu xatirələrdə cəmiyyətə xeyirli övladlar bəxş etmək üçün çəkilən əziyyət, bəslənən ümidlər yaşayacaq.

Əməksevərlik tərbiyəsi insanda ona ömürboyu gərək olacaq ədalətlilik keyfiyyətinin formalaşmasına səbəb olur. Zəhmətlə, əmək sərf etməklə əldə edilən nailiyyət məhz ədalətlə əldə edilmiş uğurdur. Və bu uğurun sevinci insanı qürurlandırır, onda özünə və iradəsinə inam yaradır. Deməli, zəhmətkeşliyin formalaşdırdığı ədalət duyğusu insanda özgüvən deyilən daha bir keyfiyyətin baş qaldırmasına səbəb olur. Zəhmətkeş insan başqalarının sevincini və kədərini paylaşar; belə insanlar paxıllıq nə olduğunu bilməzlər, daim insanlara kömək etməyə çalışarlar, təbiətin qayğısına qalarlar, insanlardakı yüksək keyfiyyəti dəyərləndirməyi bacararlar, böyüklərə hörmət, kiçiklərə şəfqət göstərərlər, xeyrin, ədalətin tərəfində olaraq cəmiyyətin inkişafına töhfələr verməyə səy göstərərlər ki, bütün bunlar hər kəsin cəmiyyət qarşısındakı sosial məsuliyyətini təşkil edən əsas amillərdəndir. Nəhayət, zəhmətkeş, əməksevər insanlar bu dünyada, məqalənin əvvəlində insanı kainatın əşrəfi kimi səciyyələndirən keyfiyyətlərdən olduğunu dediyimiz xeyirxah insanlar kimi tanınarlar, yad edilərlər.

Qürurverici haldır ki, bəşəriyyətə neçə-neçə dahilər bəxş edən qədim Naxçıvan diyarında bu gün müdrikliklə əməksevər bir mühit yaradılmaqdadır. Çünki həyatımızın bütün sahələrində tam mənası ilə hiss etdiyimiz, gördüyümüz uğurlar məhz gərgin zəhmətin əməli nəticələridir. Belə bir cəmiyyətin formalaşdırılması bugünkü möhtəşəm inkişafın əzmlə davam etdirilməsinə, əldə edilən uğurların qorunub saxlanılmasına xidmət edir. Əlbəttə, bu gün formalaşdırılan zəhmətkeş cəmiyyətdən gələcək nəsil də öz nəsibini alacaq və Naxçıvan dünya durduqca yer üzündə daim Şərqin əzəmətli qapısı olmaq missiyasını şərəflə yerinə yetirəcək. Və gələcək nəsil sahib olduğu yüksək insani keyfiyyətlərə görə, əldə edəcəyi uğurların təməlində bu gün qazanılan nailiyyətlərin və formalaşdırılan əməksevər cəmiyyətin dayandığını bilərək sələflərinə minnətdar olacaq.

Əməksevərlik tərbiyəsinin aşılanmasında muxtar respublikada keçirilən iməciliklərin mövsüm boyunca davam etdirilməsinin rolu olduqca böyükdür. Bu iməciliklərin keçirilməsi təkcə ağac əkmək, yaşıllıq salmaq kimi xeyirxah işin icrası demək deyil; eyni zamanda insanlar arasında yardımlaşmaq, gələcək üçün fəaliyyət göstərmək və ən əsası zəhmətlə əkib-becərdiyin fidanı ərsəyə gətirmək kimi yüksək keyfiyyətlərə sahib olmaq deməkdir. Bəli, muxtar respublikada keçirilən kütləvi iməciliklər insanlarımıza daim inkişaf üçün gərəkli olan sadaladığımız özünəməxsusluqlar aşılamaqdadır.

Əməksevər mühitin formalaşdırılmasında idmanın da rolu danılmazdır. Buna görə diyarımızda idmanın kütləviləşməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Növündən asılı olmayaraq, idmanla məşğul olmaq insanda dözümlülük, təssübkeşlik, zəhmətsevərlik, səbir, iradə və inam kimi xüsusiyyətlər formalaşdırır. Bu xüsusiyyətlərin məcmusundan əməksevərlik təcəlli edir.

Göründüyü kimi, dövlətimiz tərəfindən insanlarda əməksevər keyfiyyətin formalaşması üçün mümkün olan tədbirlər həyata keçirilməkdədir. Dövlətimiz buna maraqlıdır ona görə ki, məhz yuxarıda sadalanan insan cəmiyyəti yaşamağa haqq qazanır, inkişaf etməyə layiq bilinir.

*Unutmayaq ki, dövlətin istədiyi əməksevər mühitin formalaşması həm cəmiyyət, həm də fərd olaraq biz insanlara xoşbəxt gələcək, idealları uğrunda mübarizə aparıb qalib ola biləcək nəsil bəxş edəcək.*

**Səyyar MƏMMƏDOV**

# Həmyerlilərimiz beynəlxalq konfransda iştirak ediblər



Bədnam ermənilər qardaş Türkiyə Cümhuriyyətini beynəlxalq arenada gözdən salmaq üçün dünyada yalançı soyqırımı iddiaları yaymaqdadırlar. Heç bir arxiv materialına, rəsmi sənədə əsaslanmayan bu iddialar, çox təəssüf ki, bəzi məkrli dünya dövlətləri tərəfindən də dəstəklənməkdədir. Türkiyə və Azərbaycan prezidentləri, dövlət adamları bu iddianın həqiqətə uyğun olmadığını sənədlərlə sübuta yetirmiş və bu işi tarixçilərin araşdırmalarını təklif etmişlər. Ona görə də son zamanlar tez-tez beynəlxalq miqyasda türk-erməni münasibətlərinin öyrənilməsi məqsədilə elmi məclislər, konfrans və simpoziumlar təşkil edilir. Bu məclislərdə elm adamları apardığı araşdırmaları, arxivlərdən topladıqları materialları təhlil edərək ictimaiyyətə təqdim edir, bu sahədə fikir mübadiləsi aparırlar. Belə beynəlxalq tədbirlərdən biri də bu il aprel ayının 8-11 tarixlərində qardaş Türkiyə Cümhuriyyətinin Antalya şəhərindəki Ağdəniz Universitetində keçirilmişdir. Türk-erməni münasibətlərinin öyrənilməsinə həsr olunmuş tədbirdə dünyanın müxtəlif ölkələrindən gəlmiş 160-dan çox məruzəçi iştirak etmişdir. Bəhs edilən beynəlxalq konfransda Naxçıvan Muxtar Respublikasını AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev təmsil etmişlər.

Akademik İsmayıl Hacıyevin "Xarici dövlətlərin Naxçıvanla bağlı siyasətində erməni amili (1917-1921)", AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Naxçıvanda erməni işğalına qarşı mübarizənin ədəbiyyatda əksi (1918-1921)" mövzularında məruzələri maraqla qarşılanmışdır.

Məlumat üçün bildirək ki, İsmayıl Hacıyev və Əbülfəz Quliyev beynəlxalq konfransda müvafiq bölmələrə sədrlik etmişlər.

Naxçıvanlı alimlər universitetin rektoru, professor-doktor İsrafil Kurtcebhe ilə görüşmüş, ona Naxçıvanın nailiyyətlərini əks etdirən kitab-albom təqdim olunmuşdur.

**Xəbərlər şöbəsi**

# Tanınmış tenordan növbəti ustad dərsi

***Tanınmış tenor, Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Samir Cəfərov Naxçıvan Dövlət Universitetində ali məktəbin İncəsənət fakültəsinin "solo oxuma" ixtisası tələbələri üçün növbəti ustad dərsi keçib.***

Dərsdən öncə universitetin İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Mübariz Əsgərov tanınmış tenor Samir Cəfərovun yaradıcılığı, səhnə fəaliyyəti, Naxçıvanda vokal məktəbinin formalaşmasındakı xidmətləri haqqında danışıb.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək qədim və zəngin Azərbaycan incəsənətinin gənclərin əxlaqi-mənəvi tərbiyəsindəki rolundan, müasir vokal sənətinin, milli operanın inkişafına göstərilən diqqət və qayğıdan danışıb. Rektor tanınmış sənətkarın yaradıcılığını yüksək qiymətləndirərək universitetdə artıq ənənə halı alan belə ustad dərslərinin keçilməsinin əhəmiyyətindən bəhs edib.

Xalq artisti Samir Cəfərov çıxış edərək universitetdə musiqi sənətinin tədrisi üçün yaradılan şəraitdən məmnunluğunu bildirib, gənc istedadların üzə çıxarılmasında, istiqamətləndirilməsində, onlara peşəkarlığın sirlərinin öyrədilməsində əlindən gələni əsirgəməyəcəyini söyləyib.

Sonra tələbələrdən Bəsti Qasımova, Məhərrəm Quliyev, Nurbəniz Niftəliyeva, Vəli Nəsibov və digərlərinin ifaları dinlənilib. Tanınmış vokalçı onlara səs diapazonuna uyğun repertuar seçimi, düzgün tələffüz və vurğu, ifa zamanı tənəffüs orqanlarının fəaliyyətinin düzgün tənzimlənməsi, səhnə mədəniyyəti, jestikulyasiyalardan yerli-yerində istifadə ilə bağlı əhəmiyyətli tövsiyələr verib. Məşhur müğənninin ifası alqışlarla qarşılanıb.

Tədbirdə Naxçıvan Dövlət Universitetində "solo oxuma" ixtisası üzrə tədrisin mövcud vəziyyəti, musiqi təhsili alan tələbələrə keçilən vokal dərslərin səviyyəsi müzakirə olunub.

**Mehriban SULTAN**

# Yüngül atletika üzrə Naxçıvan şəhər birinciliyi





Aprelin 14-də Naxçıvan Muxtar Respublika Stadionunda "Zərərli vərdişlərə "yox" deyək, həmişə sağlam olaq" devizi altında Naxçıvan şəhərindəki ümumtəhsil məktəblərinin oğlan və qız atletləri arasında yüngül atletika üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 15 tam orta məktəbin komandası iştirak edib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, birinciliyin keçirilməsində məqsəd Naxçıvan şəhərində yeniyetmə və gəncləri zərərli vərdişlərdən qorumaq və onları yüngül atletika idman növünə cəlb etməkdən ibarətdir.

Sonra Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının sədr müavini İntiqam Rəhimov və Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev çıxış edərək muxtar respublikada idmanın inkişafına göstərilən qayğıdan, idmanın kütləviləşməsi istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, idmançılara uğurlar arzulayıblar.

195 oğlan və qız atletin iştirak etdiyi yarışın yekun nəticələrinə əsasən, oğlanlar arasında İsmayıl Haqverdiyev, Tural Gözəlov, Vəli Tağıyev, Səfər Tağıyev, Rövşən Quliyev müvafiq olaraq 100, 200, 400, 800, 1500 metr, qızlar arasında isə Aytəkin Ələkbərova, Sevinc Haqverdiyeva, Səbinə Bədəlova, Zülfiyyə Mehdiyeva müvafiq olaraq 100, 200, 300, 500 metr məsafələrə qaçışda I yerlərə layiq görülüblər. Komanda hesabında isə 9 nömrəli tam orta məktəbin komandası birinci, 6 nömrəli tam orta məktəbin komandası ikinci, 16 nömrəli tam orta məktəbin komandası isə üçüncü yerlərə layiq görülüb.

**Ceyhun MƏMMƏDOV**

## İtmişdir

Babək rayonunun Şəkərabad kənd sakini Quliyev Nüsrət Ənvər oğlunun adına olan JN-204A inventar nömrəli, 10312048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, B.Abbasov küçəsi, döngə 6, ev 16-da yaşayan Nəzərov Cəmil Tağı oğlunun adına olan 10613 inventar nömrəli texniki pasport və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 18 sentyabr 2014-cü il tarixdə verilmiş 0038199 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 305